İMADƏDDİN NƏSİMİ - 650

NƏSİMİ İLİ ÇAĞDAŞ ƏRƏB TƏDQİQATLARINDA

Mən ol Mənsuram, ey arif ki, həqdən bulmuşam nüsrət,
Ənəlhəq söylərəm daim ki, ömrüm payidar oldu.
Hüvəl əvvəl, hüvəl axir gedər səndən ikilik kim,
Nəsimi yar ilə çün kim ulaşdı, külli-yar oldu.

İmadəddin Nəsimi.

Azərbaycan elminin bir çox görkəmli nümayəndələri İmadəddin Nəsimi irsini dərindən tədqiq etmiş, tarixin qalın layları altından böyük mütəfəkkirə aid yeni-yeni səhifələri üzə çıxarmış, şairin keşməkeşli ömrü, faciəli həyatı, zəngin poeziyası, fəlsəfəsi, poetika və ritorikası haqqında dəyərli əsərlər yazmış, bununla ölkəmizdə Nəsimişünaslıq məktəbini yaradıb şaxələndirmişlər. Bu gün də onların ardıcılları öz sələflərinin yolunu davam etdirərək İmadəddin Nəsimini öyrənir, dəyərləndirirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin klassik poeziyamızın dahilərindən biri İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında 15 noyabr 2018-ci il və 2019-cu ilin ölkəmizdə "Nəsimi İli" elan olunması haqqında 11 yanvar 2019-cu il tarixli sərəncamlarından sonra Nəsimişünaslığın canlanması, dövri mətbuatda, internet mediasında, hətta sosial şəbəkələrdə geniş Nəsimi diskussiyasının aparılması bu dediklərimizi bir daha təsdiq edir.

Biz bu məqalədə Tanrının Azərbaycan torpağına, Azərbaycan xalqının mənəvi xəzinəsinə bəxş etdiyi XIV əsr Azərbaycan şerinin yaradıcısı, əqidə sahibi, amalı uğrunda canını qurban vermiş məşhur İmadəddin Nəsimi haqqında ərəb dilli media səhifələrində, elmi tədqiqatlarda Nəsimi və Nəsimi İli haqqında diqqət cəlb edən yazıları şərh edəcək, müqayisəli təhlillərə, həmçinin bizim nəsimişünaslıq üçün yeni faktlara, habelə ümumi qənaət, yanlış vurğulara diqqət yönəldəcəyik.

İlk növbədə Suriya tədqiqatlarında Nəsimi ünvanı, Nəsimi məqamının Hələb şəhərində yeri və əhəmiyyəti haqqında məlumatlarla tanış olaq. Axı hər şey o ünvandan başlayır. Suriyanın **Esyria.sy saytında** 23 avqust 2011-ci ildə yayımlanmış **"Nəsiminin türbəsi əcnəbilər və yoxsullar üçün bir sığınacaqdır"** məqaləsində professor Nidal Youssef Zaviyyat əl-Nəsimi adlı küçə ilə qonşuluqda yerləşən Al-Farafra məhəlləsində Abdel Vahab Ahmed, Afrin şəhrindən olan Ali Ömər adlı mühəndis və bir sıra əsərlərin müəllifi Abdullah Hajjar ilə söhbəti əsasında Əl-Nəsimi küçəsinin əhəmiyyəti haqqında geniş şərh verərək göstəmişdir ki, "Hələb torpağı, Hələb Qalasının şimal tərəfində Zaviyyat əl-Nəsimi adlı bir dalanda mistik Azərbaycan şairi İmad el-Din əl-Nəsimi yaşayır. ... Bu dalanda Osmanlı valilərindən bir neçəsinin arvadının, Şeyx El tasavvufun məzarı kimi bir qrup qədim məzar vardır. Bu küçə Hələbdə xüsusilə Qalanın yaxınlığında yerləşdiyindən turistlərin şəhərin dini maarifçilik və şəhərsalma tarixini öyrənməsi üçün əlverişli abidədir" (Ali Ömər), "Əl Nəsimi məqamı, turistlər, alimlər, araşdırmaçılar və tələbələr tərəfindən qədim şəhərin tarixini öyrənmək üçün ən çox ziyarət edilən, mənim üçün isə arxeoloji və tarixi kitablarda çox oxuyub, yaxşı tanıdığım turistik yerlərdən biridir. Dünya şöhrətli yazıçılar, siyasətçilər, turistlər tərəfindən ziyarət edilmişdir". "Zaviyeh al Nasimi", Sultan Hamamının şərqində, şimaldan Qalanın qarşısında yerləşir, İmad el-Din el-Sufi'nin qalıqlarını yaşadır"(Abdullah Hajjar).

İmadəddin Nəsimin ərəb tədqiqatları arasında Suriyanın məşhur arxeoloq alimlərindən biri, ömrünü Hələb şəhərinin, o cümlədən İslam memarlığı - Osmanlı imperiyası dövrü Hələb ev və məscid memarlığı tarixinin öyrənilməsi işinə həsr etmiş Lamiya Əl-Jasserin tədqiqatları daha diqqətçəkicidir. Belə ki, Hələbdə- Hankaat, Bindinq, Zavaya və Altakayada sufilik təsəvvüfü geniş şəkildə tədqiq etmiş Lamiya Əl-Jasser "Zaviyeh al Nasimi", -Nəsimi (dalanı) küçəsində yerləşən İmadəddin Nəsimi məqbərəsini öz dövrü və ümumiyyətlə tarix üçün qızıl hərflərlə belə cızmışdır: "Nəsiminin basdırıldığı məscid Qansuh əl-Quri tərəfindən hicri 910-cu ildə, miladi ilə 1504-cü ildə restavrasiya olunmuşdur və düz künclü binadır. Həyətdə bir neçə sufi qəbiri vardır. Binanın cənub və qərb hissəsində Nəsiminin qəbiri yerləşir. Osmanlı sultanlarından Mustafa Paşa 1821-ci ildə hücrəni təmir etdirmiş, Nəsiminin arvadının məzarını ora köçürmüşdür və həmin qəbir indi də ordadır. Cənub hissədə fasadda 1775-ci ildə bir qəbirin yerləşdirildiyi haqda məlumat verilsə də, kimə aid olduğu yazılmamışdır. Dizayn baxımından konstruksiyada simmetriya gözlənilməmişdir. Hücrə üç hissədən ibarətdir: Giriş, bir türbə, bir keçid, bir otaq və həyət. ... Qapı və pəncərələr bir-birindən ayrıdır ki, bu Hələbdə nadir effektlərdəndir. Hücrənin Hələb qalasına gedən yolun üzərində olan Osmanlı memarlığına aid dörd mərkəzli sivri at nalı, yay təsvirləri olan əsas arkalı qapısı nadir nümunədir. Bədii yaradıcılıq cəhətdən bayır fasad divarlarda arxa və bayır pəncərələr arasında altı künclü, altı ulduzlu çərçivələrdə yazılı mətnlər diqqəti cəlb edir. (Eyni zamanda facebook sosial şəbəkəsində).

Yeri gəlmişkən qeyd edək ki, Nəsimi tədqiqatları ilə məşğul olan fəlsəfə doktoru Səadət Şıxıyeva suriyalı alim Lamiya Jasserin toxunduğu məsələ, -Nəsiminin məqbərəsini Qansuh əl-Quri (Qavri)-nin öz qələbəsi şərəfinə bərpa etdirdiyini göstərmişdir: "Misir sultanı və çərkəz məmlüklərinin sonuncularından olan Qansuh əl-Quri (Qavri) (1516-cı ildə ölüb) öz qələbəsi şərəfinə Nəsiminin məqbərəsini bərpa etdirir".

Lakin İmadəddin Nəsiminin məqbərəsinin konkret olaraq hansı ildə bərpa olunduğunu, həmçinin şairin məqbərəsinin ikinci dəfə Osmanlı sultanlarından Mustafa paşa tərəfindən bərpa edildiyini və onun həyat yoldaşının da həmin məqama köçürüldüyünü biz ərəb mənbələrindən öyrənirik. Burada bir ştrixi də vurğulamaq istərdik ki, tədqiqatçı S.Şıxıyevanın Nəsiminin iki dəfə evləndiyi ilə bağlı qənaətinə əsaslanmış olsaq, o zaman şairin hansı həyat yoldaşının Mustafa paşanın tapşırığı ilə uyuduğu məqama köçürüldüyü sual doğurur. Bundan başqa, tədqiqatçı Lamiya Əl-Jasserin şərhində "Cənub hissədə fasadda 1775-ci ildə bir qəbirin yerləşdirildiyi haqda məlumat verilsə də, kimə aid olduğu yazılmamışdır" - qeydi Səadət Şıxıyevanın "Nəsiminin iki dəfə evləndiyi" haqqında mülahizəsinə haradasa "işıq" salır. Bəlkə də bu qəbir elə bizim tədqiqatçı alimin vurğuladığı kimi Nəsiminin ikinci arvadının qəbiridir?

İmadəddin Nəsiminin həyatı, məqamı haqqında Ərəb mənbələrindən biri **"İyirminci əsrin əvvəlləri Hələb Qalası kəsişməsində Nəsiminin məzarı"** adlı yazıda da ətraflı məlumat verilir.

Məqbərənin Osmanlı sultanları tərəfindən iki dəfə bərpa olunduğu, onun Hələbin İsmayıl məktəbinə bitişik olduğu, burada təsəvvüf nümayəndələrinin çoxunun dəfn edildiyi bu məqalədə də şərh olunur. Əslində tanış ola bildiyimiz ərəb mənbələrinin, demək olar ki, hamısında İmadəddin Nəsiminin məqamının yerləşdiyi ərazi Osmanlı məskənləri kimi qeyd edilib. Nəzərdən keçirdiyiniz məqalədə məzarın Azərbaycanın məşhur şairi İmadəddin Nəsimiyə aid olduğu, Nəsiminin 1370-ci ildə Azərbaycanda doğulduğu, əsasən Azərbaycan və fars dillərində, az qismdə ərəbcə yazdığı, Hələbdə ictimai rola malik bir şəxs kimi tanındığı... Hələbdə yaşadığı müddətdə ateizmlə və "itaətsizlikdə" günahlandırıldığı, 1417-ci ildə dərisinin soyularaq, 7 gün nümayiş etdirildiyi göstərilmişdir.

Suriyanın Albayan - "Bəyanat" adlı saytının 19 sentyabr 2014-cü il tarixində yayımladığı İmadəddin Nəsimiyə həsr olunmuş **"Şeir sənətinin emosionallıq və ruhi həyəcan təcrübəsinin sirri ilə Nəsimi şeirlərindəki unikallıq arasındakı harmoniya. Şair Nəsimi insan və sehrindən heyrətləndi" adlı** ((haqqında bir az sonra geniş bəhs edəcəyimiz) məqalədə şairin ünvanı bir qədər daha ətraflı təsvir olunmuşdur: "Əl-Nəsimi məscidi, Zavviyat əl-Nəsimi kimi tanınan dalanda, Hələbdəki Al-Farara məhəlləsinin qalaya doğru və şimala doğru yuxarı hissəsində, Sultan Hamamı yaxınlığındakı İsmaili məktəbinin qərbində yerləşir".

Marefa.orq saytında yer almış "Əli Emad Eddin Əl Nəsimi" məqaləsindən oxuyuruq: "Şirvan (Fars) şəhərində dünyaya gəlmiş və Hələbdə vəfat etmişdir, ancaq bəzi istinadlarda doğulduğu yer fərqli göstərilmişdir. Bəziləri Bağdad yaxınlığında Nəssim kəndi ilə əlaqələndirirlər (ehtimal ki, gəncliyində bir müddət orada yaşamışdır).

Bu məqalədə də həmçinin Nəsiminin dünyagörüşünə böyük təsir göstərmiş, 1393-cü ildə Hürufilik doktrinasının banisi Mansur Əl Həllacdan, bu yöndə Kabbalahdan (yəhudi Kabbalizmi - Cabalism), Nəsimiyə Əhməd Yəsəvi, Cəlaləddin Rumi və Yunus Əmrə kimi böyük sufi şairlərin təsirindən, ancaq dini təriqət baxımından şairin "Əl Nəsimi on iki Şiəli idi və şeirlərinin çoxunda dərin və köklü inancını ifadə etdi" -kimi dini baxışlardan və həyatı və poeziyası ilə bağlı məsələlərdən geniş bəhs edilir. Məqalədən gətirdiyimiz bu iqtibasdakı fikirlər də Nəsiminin ərəb tədqiqatçılarının ümumi qənaətini ifadə edir: "Əl Nəsimi öz əqidəsinə olan böyük coşqusuyla bütün dini və sosial sərhədləri aşmış, insanı ən yüksək, qiymətli varlıq kimi dəyərləndirmişdir. Bu isə Suriyadakı Məmlük dövlətinin onu təhdidlərinə yol açırdı. Belə rəvayət vardır ki, şairin üzünün dərisini soyduqdan və bədənini doğrayıb, dərisini Hələbin on iki qapısından çiyinlərində daşımışlar".

Onu da qeyd edək ki, nəzərdən keçirdiyimiz məqalədə İmadəddin Nəsimi tədqiqat mənbələrindən, məsələn "Nabil əl-Hafar. "Nessim (Əli İmad Eddin)", K.Burrill "The Quatrains of Nesemi" və s. göstərilmişdir ki, fikrimizcə, bu mənbələr böyük şairin araşdırmaçıları üçün əhəmiyyət kəsb edə bilər.

"İmadəddin Əsl-Nəsimi. Şair və üç mədəniyyət" məqaləsində Azərbaycan şairi İmadəddin Nəsimi ərəb oxucusuna belə təqdim edilir: "İmad el-Din Nəsimi Türkdilli xalqlar tarixinin ən böyük şairlərindən, XIV əsr Azəri ədəbiyyatının ilk qurucusu və ilk Türkmən ləhçəsində, həmçinin fars və ərəb dillərində şeir yazan türk hürufi söz sahiblərindən biri, əlavə olaraq türkdilli ölkələrdə islam fikrinin məşhur simalarındandır". Eyni zamanda Nəsiminin "İraq ilə Azərbaycan, Anadolu və Hələb arasında daimi səfərlərdə olmaqla üç dildə yazan şair kimi məşhurlaşdığı" vurğulanır.

Bu məqalədə (bəzi digər mənbələrdə olduğu kimi) şairin Bağdad yaxınlığında, "Nasim" adlı bir bölgədə tam olmayan məlumata görə, dindarlığa yaxın bir ailədə doğulduğu şərh olunur. Ancaq müəllifin qənaətləri akademik Ziya Bünyadovun bu məsələ ilə bağlı elə tarixi ərəb mənbələrinə istinadən verdiyi şərhdəki məntiqi, tutarlı dəlillərə uyğun gəlmir. Məsələn, akademik Ziya Bünyadovun "Azərbaycan şərqşünaslığı" jurnalının 2009-cu il tarixli 1 nömrəli sayında çap olunmuş **"Nəsimi diri-diri dərisi soyularaq öldürülməyib"** məqaləsində göstərmişdir ki, "Nəsiminin adı və haralılığı haqda məlumat da müxtəlif ərəb mənbələrində müxtəlifdir. Ərəb müəllifləri İbn Həcər Əsqəlani (1372-1449) "Ənba əl-qumr biəbna əl-umr" ("Həyat oğulları haqqında dolğun bilgi"), Şəmsəddin Səxavi (1427-1497) "əd-Da'əllami liəhl əl-qərn ət-tasi" ("9-cu hicri əsrinin əhli üzərinə parıldayan işıq") və İbn əl-İmdad əl-Hənbəli (öl. 1678) "Şəzərat əz-zəhəb fi əxbari min zəhəb" ("Ölüb gedənlər haqqında xəbərlərdən qızıl dənəciklər") əsərində aşağıdakı məlumatı verirlər: "Bu 820-ci (1417) ildə Hələbdə yaşayan Şeyx Nəsiməddin Təbrizi öldürülmüşdür. O, Hələbdə hürufiyyə məzhəbinin şeyxi idi. Orada onun məsləkdaşlarının sayı artır, küfrü intişar edir və şöhrət qazanır. Onun sərəncamları sultan əl-Müəyyəd Şeyxin onu öldürmək haqqında əmrinə qədər yerinə yetirilirdi. Onun başını kəsib, dərisini soydular və cəsədini çarmıxa çəkdilər". Beləliklə, üç ərəb orta əsrlər müəllifləri Nəsiminin adını İmadəddin yox, Nəsiməddin kimi və yer mənsubiyyətini Nəsimi və ya Şirvani yox, Təbrizi kimi qələmə alırlar". Yalnız 1920-ci ildə vəfat etmiş Məhəmməd Raqib ibn Mahmud ibn Haşim ət-Təbbaq əl-Hələbinin "İlam ən-nubəla bitarix Hələb əş-Şəhra" ("Ali cənabların Boz Hələbin tarixi haqqında məlumatları") adlı əsərində (Hələb, III c., 1925, s.15-16) Nəsiminin məhkəməsi və qətli haqqında bir qədər müfəssəl məlumat verilir. Ancaq bu məlumatı da Məhəmməd Raqib 1479-cu ildə vəfat etmiş Əbuzər Əhməd ibn Burhan İbrahim Sibt ibn əl-Hələbinin "Künüz əz-zəhəb fi-tarix Hələb" ("Hələb tarixinə dair qızıl xəzinələr") adlı əsərindən götürüb. Təəssüf ki, son əsər bizə gəlib çatmayıb. Lakin ehtimal etmək olar ki, Məhəmməd Raqib Nəsimi haqqında məlumatı xətərsiz köçürüb".

Bundan başqa, məqalə müəllifinin şairin həyatı haqqında da qənaətləri əsl həqiqətə uyğun deyildir. Məsələn, Ziya Bünyadov kimi digər akademiklər - Həmid Araslı və Teymur Kərimli və ümumiyyətlə, Azərbaycanın bütün ədəbiyyatşünas alimləri Nəsiminin 1369-cu ildə Azərbaycanın Şamaxı şəhərində doğulduğunu elmi cəhətdən əsaslandırmışlar. Hətta YUNESKO bu faktı qəbul etmişdir.

(davamı 7-ci səhifədə)

İMADƏDDİN NƏSİMİ - 650

NƏSİMİ İLİ ÇAĞDAŞ ƏRƏB TƏDQİQATLARINDA

(əvvəli 6-cı səhifədə)

2013-cü il, 05 avqust tarixində alatan.kuait.tt saytında "Hələbdə bir şair... yaşayır!" məqaləsi yayımlanmışdır. İmadəddin Nəsiminin həyatı haqqında geniş bəhs etdiyi bu məqaləsində şairin 923 ildə Bağdatda öldürülən Abu Mansur əl Həllacın ən böyük heyranlarından olduğu", "Haqq məndədir" doktrinini Hallacdan qəbul etdiyi, edamına da məhz bu əqidəsinin səbəb olduğu və başqa həyatına dair ştrixləri vurğulayan tanınmış ərəb tədqiqatçısı Xəlil Əli Heydər həmçinin şairin ideoloqu - hürufiliyin banisi Fəzlullah Nəimi haqqında da öz oxucusuna geniş məlumat verir. Belə ki, müəllif İmadəddin Nəsiminin müəlliminin 1401-ci ildə, əmir Teymurun qəzəbinə tuş gəldiyi, onun oğlu Miranşaha müraciət etdiyi haqqında ("Teymurun oğluna müraciət etdi. Lakin onun mühafizəçisi əlini boynuna vurdu. Bununla Teymurun onun başını vurmağı əmr etdiyini bildirdi, hökm 1401-ci ildə icra olundu") bu və digər tarixi dəlilləri önə çəkir.

Xəlil Əli Heydərin **"Hələbdə bir şair... yaşayır"** məqaləsində İmadəddin Nəsimi doktrininin XVII əsrə qədər davam etdiyi haqqında da məlumat verilmişdir. "Bunu iki şair, İmad əl-Din Nəsimi və bioqrafiyası haqqında heç bir məlumat olmayan şair Rafi davam etdirmişdir. Türk tarixçiləri və şairin tədqiqatçıları bundan xəbərsizdirlər". Ümumiyyətlə, bizim tədqiqatçıların Xəlil Əli Heydərin bu məqaləsi ilə tanış olub, şərh vermələri faydalı olardı. (Türk Edebiyatı Tarihi, Dr. Hüseyin Mujib el-Masri, s. 54)

Maraqlıdır ki, məkan-zaman şərtilikləri çıxılmaqla istər doğulduğu ana vətəni Azərbaycan olsun, istər həyata əlvida dediyi Hələb - ərəb dünyası və həmçinin bütün dünya - Söz dahisi İmadəddin Nəsimidən kütləvi şüurda bir "Ənəlhəq" və bir də altı yüz əlli il əvvəl onun tarixdə nadir ölüm hökmlərindən biri, həmçinin İslam-müsəlman psixoloji etno identikliyinə və şəriət qaydalarına uyğun olmayan ölüm cəzası — dərisinin diri-diri soyularaq qətlə yetirilməsi dəhşətli faciə səhifəsi kök atıb. 650 ildir ki, dünya İmadəddin Şeyx Nəsimi adlı bir mistik həqiqət aşiqinin möminlərin "qılınc oynatdıqları meydanlarda" necə böyük cəsarətlə dillər əzbəri "Ənəlhəq" hayqırmasından danışır. Bəlkə də İmadəddin Nəsimini tarixdə oxudan, Divanını sevdirən ilk növbədə bu iki ştrixdir. Bunlardan sonra gəlir şairin keşməkeşli zəvvar həyatı haqqında düşüncələr, onun çoxu Azərbaycan dilində, həmçinin fars və ərəb dillərində olan qəzəllərinin, şeirlərinin toplandığı Divanının poetikasının dərki və əlbəttə ki, fikrin katarzisi ilə onun bütün məchul, naməlum yanaşmalardan xilas edilib dahilik və laməkanlıq - Haqq məqamına ucalması həqiqətləri. Bu baxımdan Nəsiminin qətlinin motivləri ilə bağlı əfsanəvi düşüncələr, rəvayətlərdən qaynaqlanan qənaətlər nəzərdən keçirdiyimiz Ərəb tədqiqatlarında geniş yer almışdır. Ancaq Nəsimi tədqiqatlarından və bu istiqamətdə Nəsiminin edamı kimi mühüm məsələdən bəhs edən bu yazılar, eləcə də bizim yeni təhlillər görkəmli Azərbaycan şərqşünası, akademik Ziya Bünyadovun araşdırmaları və gəldiyi mühüm nəticələrin təkrarı, alimin özünün də vurğuladığı kimi, köçürmə təəssüratını doğurur (Bax. Ziya Bünyadovun "Azərbaycan şərqşünaslığı" jurnalının 2009 (N1) tarixli sayında çap olunmuş **"Nəsimi diri-diri dərisi soyularaq öldürülməyib"** məqaləsi).

Məsələn, akademik Ziya Bünyadov **"Nəsimi diri-diri dərisi soyularaq öldürülməyib"** məqaləsində göstərir ki, "İndiyə qədər Nəsiminin ölümü haqqında xəbər bizə yalnız türk alimi Əbdülbaqi Gölpınarlının "İslam Ensiklopediyası"nda dərc olunan "Nəsimi" adlı məqaləsindən bəllidir (Bax: "İslam Ensiklopediyası", İstanbul, 1964, cild 9, səh. 206-207). Məqalədə qısaca deyilir ki, Nəsiminin məhkəməsi və qətli Məmlük sultanı əl-Müəyyəd Seyfəddin Şeyxin hakimiyyəti (815-824 hicri və ya 1412-1421-ci miladi illər) və Hələb valisi Yaşbək ibn Abdulla əl-Yusifinin dövründə (818-824 hicri və ya 1414-1424-cü miladi illər) olub. Bu məlumat alimlərimiz tərəfindən sözsüz qəbul olunur və eynilə bütün tədqiqatlara köçürülür.

Digər bir misal, bu məqalədə Nəsiminin məhkəməsindən bəhs olunur ki, bu gün yerli və xarici nəsimişünaslıq, demək olar ki, akademikin üzə çıxardığı, əsaslandırdığı mənbəni orijinalda olduğu kimi şərh edir. Məsələn, Ziya Bünyadovun məqaləsindən oxuyuruq: "İmadəddin Nəsiminin qətli hekayəsi: "Künüz əz-zəhəb"də deyilir ki, zındıq (bidətçi - red.) Nəsiminin qətli əmir Yaşbək ibn Abdulla əl-Yusifinin vaxtında olub. Ona qarşı ittiham Hələbin Ədalət Sarayında şeyximiz ibn Xətibin və Şəmsəddin ibn Əminəddövlənin hüzurunda irəli sürülüb. Həmin zaman şeyxin naibi İzzəddin, malikilərin qazilər qazisi Fətxəddin və hənbəlilərin qazi-

lər qazisi Şihabəddin də orada olub. Nəsimi bir para ağılsız adamları azdırıb yoldan edib və bunlar onun küfrünə, zındıqlığına və mülhidliyinə (çoxallahlılıq) qoşularaq, onun ardınca gediblər. İttiham ilə onun əleyhinə hənəfilərin qazilər qazisi İbn əş-Şənqasi çıxış edib. Bu hadisə qazilərin və Hələb şəhəri üləmalarının hüzurunda baş verib və naib Yaşbək ona (Nəsimiyə - Z.B.) deyir: "Sən öz dediklərini sübuta yetirməlisən, yoxsa mən səni öldürəcəyəm!".

Məlumdur ki, əksəriyyət tədqiqatçıların İmadəddin Nəsiminin öldürülməsi ilə bağlı ümumi fikri şairin sırf İslam dininə zidd mövqe nümayiş etdirməsi, Allahı danması, Ənəlhəqq - həqq mənəm,- deməsi Qurana hörmətsizliyi üzərində cəmlənir. Bu baxımdan yuxarıda nəzərdən keçirdiyimiz məqalələrin sırasında **"Hələbdə bir şair .... yaşayır!"** məqaləsi də istisna təşkil etmir. Tanış olaq: ""Türk Edebiyatı Tarixi" adlı kitabda belə "Nəsimi, Məmlük sultanlarına aid olan Hələb şəhərində öldü. Alimlər, küfrlərini topladı və elan etdilər. Müftü, onun ölümünə qərar verdi. Hələb müftüsünün onun ölümünə şahidlik etdiyi söylənilir. Kafirləri məhkum etdiyi üçün təltif olunduğu vaxt əsəbi bir şəkildə bağırdığında belə ən sadə "kafirciyi" görürdü: çirkli deyil, bir ölmüş, hətta qanından bir damcı ölünün üstünə düşsə, ölü murdar olar. Nəsiminin dərisini soymaq heyrətamiz bir fikirdi... Müftü onun fışqıran qanından içdi və barmağına düşdü və bu zaman Sufi Müftüyə tərəf döndü, ona əlinə bir neçə qan nöqtəsi düşdüyünü barmağının kəsilməli olduğunu söylədi. Müftü söz verdiyi kimi barmağını kəsdi.

İmadəddin Nəsiminin ömrünün sonu ilə bağlı məlumatlar istiqamətində **"Şairlərin şeirlərindən seçmələr: İmad əl-Din əl - Nəsimi (1369-1418)** yazısı da eyni mənbədəndir.

Məqalədən oxuyuruq: "İmad əl-Din əl-Nəsimi, XIV əsrdə yaşayan böyük bir şair, filosof və mistik idi. O, qəddarlıq və itaətsizliklə ittiham olunaraq, 1418-ci ildə Suriyada Hələbdə edam edildi. O, "Hürufilik" nümayəndəsi idi, yəni ədəbiyyat, ədəd və məktubların mübadiləsinin sirrini bilməklə mövcudluğun sirlərini öyrənməyin mümkün olduğuna inananlardandı. Onun ölümünə fərman verdikləri zaman hökmlü dindarların qarşısında düşüncə gücü ilə dayanmağa sahib olan bir şair idi".

Başqa bir müəllif, **-Feysal Xratç "Şeir sənətinin emosionallıq və ruhi həyəcan təcrübəsinin sirri ilə Nəsimi şeirlərindəki unikallıq arasındakı harmoniya. Şair Nəsimi insan və sehrindən heyrətləndi"** adlı məqalədə Nəsimi haqqında Suriyada ilk tədqiqat əsəri yazan Əbdulfəttah Rəvvas Qələçinin İmadəddin Nəsimiyə həsr etdiyi kitabdan bəhs edərkən şairin edam hadisəsini onun dini baxışları ilə əlaqələndirir: "Düşüncələrini yaymağa başladıqda alimlər bunu İslama qarşı bir çıxış kimi qarşıladılar və üsyan etdilər. Osmanlı səlahiyyət sahibləri tərəfindən təqib edildi, həbs olundu, işgəncələrə məruz qaldı. Bundan sonra Osmanlı İmperatorluğundan Hələbə doğru yola çıxdı. 1401 -ci ildə əmir Teymurun Suriyadan ayrılmasından sonra Hələbə gəldi. Bu onu fərəhləndirdi. Müəllimlər və şagirdlərlə tanış oldu. Düşüncələrini bölüşdü. Şeirlərini oxudu. Onun azad fikirlərini getdikcə daha geniş meydanlarda paylaşması bəzi dindarlar tərəfindən gündəmə gətirildi, ancaq edilən xəbərdarlıqlara rəğmən, çıxışlarını davam etdirdi, dinləyicilərini qəbul etməkdə davam etdi. Şagidlərindən birinin müəlliminin şeirlərini Hələbdəki bir bazarda söylədiyi deyilir".

Alim Qələçi öz kitabında İmadəddin Nəsiminin edamı ilə bağlı da məlumatlar vermişdir: "Bu gənc adam həbs olundu və mühakiməsi zamanı müəlliminin təhlükəsizliyi üçün saçını uzatdı, ölüm cəzasına məhkum edildi. Ancaq Əl Nəsimi şeiri ilə dərhal əcəli özünə döndərdi və bir qrup elm adamının iştirak etdiyi Ədalət Məclisinə gətirildi. Hələb hakimi Yəsbak əl Yusufinin qatıldığı və əl-Nəsiminin yalan, ateizm və itaətsizlikdə günahlandırıldığı məhkəmədə hakimlər ölüm cəzasını qəbul etmədilər. Hələb hakimi: "Onu öldürmürəm və Sultanın qərarını "gözləyəcəyəm" dedi. **Filosofun edamı:** Qurum hakimlərin fikirlərini əks etdirən qərarı pozan hökm göndərmişdir. Alimlərin Qahirədəki sultana Nəsiminin cildinin və dərisinin soyulması ilə doğranması edamı və nəəşinin 7 gün Hələbdə nümayiş etdirilməsi barədə müraciətinə cavab gəlir. Ancaq müxalifləri Nəsimini təqsirləndirmək üçün qanuni bir əsas tapa bilmədilər. **Sükut çökdü. Nəsimi iki dəfə Kəlmeyi-şəhadətini dedi.**

Qeyd edək ki, Nəsiminin edamı zamanı 2 dəfə kəlmeyi-şəhadətini deməsi faktı bizim tədqiqatlar kitabxanasından ən dəyərli mənbə akademik Ziya Bünyadovun **"Nəsimi diri-diri dərisi soyularaq öldürülməyib"** məqaləsində qeyd olunmuşdur. Ziya Bünyadov Azərbaycan nəsimişünaslığında üzə çıxardığı tarixi dəlillərdən çıxış edərək yazır: **"... Bu sözləri eşitcək İbn əş-Şənqasi ittihamdan imtina edir. Nəsimi isə iki dəfə kəlmeyi-şəhadət deməkdən savayı başqa bir söz demir və özünə qarşı deyilənləri inkar edir.** Bu anda hənbəlilərin şeyxi Şihabəddin durub malikilərin qazisi Fətxəddindən yuxarı başda oturub və həmin məclisdə fitva verib ki, Nəsimi zındıqdır və tövbəsi qəbul olunmadan öldürülməlidir. O (Şihabəddin - Z.B.) Fətxəddindən yuxarı başa keçib oturarkən Fətxəddin özünü ondan yan çəkir və Şihabəddin ona deyir: "Nə üçün də onun qətlinə fitva verilməsin?" Fətxəddin isə ona deyir ki, olmaya öz əlinlə ona ölüm hökmü yazmaq istəyirsən?" Şihabəddin: "Bəli!" deyə cavab verir. Sonra o, fitva sənədini tutub yazır və öz yazısını şeyximiz ibn Xatibə və iştirak edən qalan qazi və üləmalara təqdim edir. Onlar isə onun fitvasına razılıq vermirlər və Fətxəddin ona deyir: "Qazi və üləmalar səninlə razı olmadıqları halda, mən sənin sözünlə ona necə ölüm hökmü kəsə bilərəm?" Əmir Yaşbəksə söyləyir: "Mən onu öldürə bilmərəm, çünki sultan Əl-Müəyyəd göstəriş verib ki, onu (sultan - Z.B.) məsələdən xəbərdar edim. Belə ki, mən sultanın Nəsimi barəsində nə kimi sərəncam verəcəyini gözləməliyəm". Məclis bununla dağılır və Nəsimi naib Yaşbək yanında, ədalət sarayında dustaq qalır. Onun işi ilə sultan əl-Müəyyədi tanış etdilər. Bundan sonra Yaşbəkə göstəriş gəlir ki, dustaq zindana köçürülsün. Nəsimini aparıb qala həbsxanasına salırlar. Sonra isə Sultan əl-Müəyyədin sərəncamı gəlir çatır ki, Nəsimi öldürülüb dərisi soyulsun və yeddi gün Hələbdə car çəkilib əyan edilsin, sonra da cəsədi parça-parça edilsin: bir qismi Əlibəy Zülqədərə və onun qardaşı N(Sirlər açılır/Brifinq)əsrəddinə göndərilsin. Belə ki, Nəsimi onların da inamlarını pozmuşdu. Nəsimi ilə elə belə də etdilər. O kafir, mülhid bir adam idi. Allah bizi onun söz və əməllərindən hifz edib qorusun! Amma onun lətif şeirləri vardır!" Onu da qeyd etmək istərdik ki, akademik Ziya Bünyadov İmadəddin Nəsiminin soyulması məsələsini tarixi fakt kimi qəbul etməmiş, - buna "Bu mötəbər məxəzlərdən gətirilən məlumat göstərir ki, Nəsiminin diri-diri dərisinin soyulması sonralar xalq tərəfindən yaranmış bir əfsanədir və geniş kütlənin ona olan hüsnrəğbətinin rəmzidir. Bu əfsanəyə isbat edilmiş bir elmi məlumat kimi və ya tarixi bir fakt kimi baxmaq yanlışdır" - şərhini vermişdir.

Nəsiminin edamı hadisəsi, eləcə də Z.Bünyadov şairin "diri-diri soyulmasını qəbul etməməsi məntiqi qənaəti ilə Səadət Şıxıyevanın **"O əsəri əlimə götürəndə dedim, Nəsiminin deyil...(Sirlər açılır/Brifinq)", habelə "(Nəsimi iki dəfə evlənib, diri-diri soyulmayıb, oğlu və qızı... Sirlər açılır/Brifinq"** məqalələrində də rastlaşırıq.

Əlbəttə ərəb alimi Əbdülfəttah Rəvvas Qələçinin kitabı əlimizdə deyil və onun Nəsimini geniş təhlillərini müqayisəli şəkildə təqdim edə bilmirik. Qısa, yığcam məlumatlarımız bundan ibarətdir ki, ərəb alimi Əbufəttah Rəvvas Qələçinin təhlil olunan **"Hələbin yaqutu İmadəddin Nəsimi"** kitabı 1991-ci ildə nəşr olunub. Akademik Ziya Bünyadovun istinad etdiyi mənbə isə 1964-cü ilə aiddir və fikrimizcə o tarixdən bu yana yazılan əsərlərdə həmin dəlillərdən istifadə olunması təəccübləndirmir. Ancaq əlbəttə ki, ədalət hissi və elmi obyektivliklə ilk tədqiqatlar göstərilməlidir.

(davamı növbəti saylarımızda)

Xatirə QULİYEVA,
Fəlsəfə elmləri doktoru,
""Nəsimi" Suriya-Azərbaycan Dostluq Cəmiyyəti" İctimai Birliyinin təsisçisi və sədri.